

# Yubilyarın adına layiq

*Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, xalq yazıçısı, respublika dövlət mükafatı laureatı, əməkdar incəsənət xadimi, tanınmış nasir və istedadlı dramaturq İlyas Əfəndiyev ədəbiyyatımızın ən çox sevilən və oxunan sənətkarlarından biridir.*



İlyas Məmməd oğlu Əfəndiyev 1914-cü il noyabr ayının 14-də Füzuli şəhərində (keçmiş Qaryagində) tacir ailəsində anadan olmuşdur. Burada ikinci dərəcəli məktəbi bitirib orta məktəblərdə dil və ədəbiyyat fənlərini tədris etmişdir.

İlyas Əfəndiyev 1933-cü ildə Pedaqoji İnstituta daxil olsa da, bir ildən sonra yenidən doğma şəhərə qayıdır, burada orta məktəbdə coğrafiya müəllimi işləyir. Eyni zamanda həmin institutun coğrafiya şöbəsində qiyabi təhsil almışdır.

İlyas Əfəndiyev 30-cu illərin axırlarında hekayələrlə ədəbiyyatımıza gəlmiş və ilk əsərlərindən oxucuların diqqətini cəlb etmişdir. "Gözlənilməz məhəbbət", "Sən ey qadir məhəbbət", "Durnaların günahı","Apardı sellər Saranı", "Qoca tarını çaldı" və sair hekayələr Azərbaycan ədəbiyyatına istedadlı bir yazıçının gəldiyini xəbər verdi. İlyas Əfəndiyevin hekayələri 1936-cı ildə mətbuat səhifələrində dərc olunmağa başlamışdır.

1938-ci ildə Bakıya gələn İlyas Əfəndiyev "Yeni yol", "Kommunist", "Ədəbiyyat" qəzeti redaksiyalarında işləmişdir.

Yazıçının ilk kitabı 1939-cu ildə Azərnəşr tərəfindən buraxılmış "Kənddən məktublar" adlı povest və hekayələr kitabıdır. Kitabda verilmiş eyni adlı povestlə yanaşı "Qarımış oğlan", "Mirzə İmam", "Qızbəs xala" hekayələri gənc yazıçının axtarışlarının uğurlu nəticəsi idi.

İlyas Əfəndiyev 1940-1941-ci illərdə "Ədəbiyyat qəzeti" redaksiyasında tənqid şöbəsinin müdiri, 1941-1944-cü illərdə həmin qəzetin ədəbiyyat şöbəsinin müdiri, 1944-1945-ci illərdə Bakı kinostudiyasında ssenari şöbəsinin rəisi vəzifələrində işləmişdir.

Böyük Vətən Müharibəsinin başlanması bütün ədəbiyyatımıza olduğu kimi İlyas Əfəndiyevin yaradıcılığına da yeni mövzu gətirdi. Bu illərdə yazıb-yaradan bir sıra sənətkarlar kimi o da xalqımızın qəhrəmanlıqlarla dolu tarixi keçmişinə müraciət etmişdir. Müharibə mövzusunda olan əsərlərini yaradarkən yazıçı yenilməz döyüşçülərin mənəvi keyfiyyətlərinin açılmasına daha çox fikir verir. "Durna", "Kiçik bir poema", "Tar", "Sən ey qadir məhəbbət", "Qəhrəman ilə bülbülün nağılı", "Qarı dağı" və sair hekayələr belə əsərlərdəndir. 1943-cü ilin sentyabrında gənc yazıçı İlyas Əfəndiyevin "Tar çalındı"adlı hekayəsi "Ədəbiyyat" qəzetində dərc olunmuşdur.

Böyük Vətən Müharibəsi dövründə yazılan hekayələr 1945-ci ildə nəşr edilmiş "Aydınlı gecələr" kitabında toplanmışdır.

İlyas Əfəndiyev 1943-cü ildə Mehdi Hüseynlə birlikdə ilk dram əsəri olan "İntizar" pyesini yazmışdır. Əsər 1944-cü ilin dekabr ayında Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur.

İlyas Əfəndiyev 1945-1946-cı illərdə Azərnəşrdə ədəbiyyat şöbəsinin müdiri, 1946-1947-ci illərdə "İnqilab və Mədəniyyət" jurnalı redaksiyasında nəşr şöbəsinin müdiri vəzifəsində işləmişdir.

Görkəmli sənətkar 1946-cı ildən 1952-ci ilə qədər bütün qüvvəsini bədii yaradıcılığa həsr edərək heç yerdə işləməmişdir.

İlyas Əfəndiyev 1946-cı ildə özünün ilk müstəqil dramı olan "İşıqlı yollar" pyesini yazır. Bu pyes 1947-ci ildə Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur. 1948-ci ildə "İşıqlı yollar" əsərini Akademik Milli Dram Teatrı Moskva qastrolu zamanı paytaxt tamaşaçılarına göstərmişdir və uğur qazanmışdır.

İlyas Əfəndiyev Mehdi Hüseynlə birlikdə A.N.Ostrovskinin "Son qurban" komediyasını Azərbaycan dilinə çevirmişdir.

Müharibədən sonrakı dinc quruculuq illərində əmək adamlarımızın bədii obrazını yaratmaq ədəbiyyatımızın ən başlıca mövzusu idi. 50-ci illərdə əmək adamlarının canlı obrazı oçerk janrında verilirdi. İlyas Əfəndiyev də bu mövzuda bir sıra oçerklər yaratmışdır. "Tikinti adamları", "Dağlar səslənən yerdə", "Əmək adamları", "Gənc ustalar", "Yeni kənd, yeni adamlar", "Fədakar neftçi" və sair əsərlərini göstərmək olar.

Həmin illərdə İlyas Əfəndiyev uşaq ədəbiyyatının inkişafı sahəsində də xeyli işlər görmüşdür. 50-ci illərdə yazıçı uşaqlar üçün "Zəmidə bir turac səsləndi", "İz ilə", "Ovçunun nağılı", "Ceyran ovu", "Yasəmən ağacı", "Qoruqlarda" və sair hekayələri ilə balaca oxucularımızı sevindirmişdir. Bu hekayələrdə yazıçının uşaq psixologiyasına yaxşı bələd olması, azyaşlı uşaqların ürəyinə yol tapa bilməsi, ümumiyyətlə, uşaq aləminə yaxından bələd olması bir daha sübut olunur.

Ədibin yaradıcılığında məktəb yaşlı uşaqlar üçün yazılmış "Torpağın ətri", "Turac" və sair əsərlər müəyyən yer tutur. İlyas Əfəndiyev belə hekayələrində doğma torpağın ətrini, turacın gözəlliyini, çöllər gözəli olan ceyranı, cüyürü dərin məhəbbətlə, böyük ustalıqla qələmə almış, təsvirini vermişdir.

Görkəmli yazıçı İlyas Əfəndiyev qələmə aldığı "Gülaçar", "Görüş", "Yun şal", "Su dəyirmanı", "Qırçı və qızıl çiçək", "Yaylaq qonşumuz", "Şəhərdən gələn qonaq" və sair əsərləri ilə hekayə janrının gözəl nümunələrini yaratmışdır. Bu hekayələrdə yazıçı insanların yaradıcı əməyini, onların yenilməz, zəngin daxili aləmini açmışdır. Yeniliklə köhnəlik arasında gedən mübarizəni təsvir edən yazıçı insanları yenilik qarşısında acız qalmamağa çağırmış və yeniliyin, düzlüyün hər şeyə qalib gələcəyini böyük məhəbbətlə qələmə almışdır.

Yazıçının rus dilində ilk kitabı "Rasskazı" adı ilə 1951-ci ildə nəşr olunmuşdur.

Görkəmli yazıçımız İlyas Əfəndiyev 1952-1958-ci illərdə Azərbaycan Yazıçılar İttifaqında nəsr üzrə məsləhətçi, 1958-1961-ci illərdə isə məsul katib işləmişdir.

Ədib 1961-ci ildən sonra ancaq bədii yaradıcılıqla məşğul olmuş, bir-birindən gözəl əsərlər yaratmışdır.

Xalq yazıçısı İlyas Əfəndiyev Azərbaycan dramaturgiyasında yeni bir məktəb açmış, lirik-psixoloji pyeslərin əsasını qoymuşdur. O, böyük ustalıqla müxtəlif mövzulu, müxtəlif xarakterli, bir-birindən gözəl, bir-birindən fərqli 23 dram əsəri yaratmışdır.

İlyas Əfəndiyev 1954-cü ilin

aprelində Azərbaycan Yazıçılarının II və 1958-ci ilin dekabrında III qurultayında "Azərbaycan dramaturgiyasının inkişafı haqqında" məruzələrlə çıxış etmişdir.

Yazıçı 1958-ci ildə özünün ilk böyük nəsr əsəri olan "Söyüdlü arx" romanını yazmışdır. Bu romanda 50-ci illərin axırlarında Azərbaycan kəndində gedən quruculuq işlərindən, təsərrüfat və mədəniyyət sahəsindəki inkişafdan, köhnəliklə yeniliyin mübarizəsindən söhbət açılmışdır.

İlyas Əfəndiyev XX əsr ədəbiyyatının tarixinə ölməz dram əsərlərinin müəllifi kimi daxil olmuşdur. Onun son 50 ildə Azərbaycan Milli Dram Teatrının səhnəsindən düşməyən "Atayevlər ailəsi", "Sən həmişə mənimləsən", "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər", "Mahnı dağlarda qaldı", "Natəvan", "Bizim qəribə taleyimiz", "Büllur sarayda" və sair dramları onun gözəl dramaturq olduğunu bir daha sübut edir.

Ümumiyyətlə, görkəmli yazıçımız İlyas Əfəndiyev 23 dram əsəri yaratmışdar. Bu əsərlərin 19-u eyni bir teatrın - Azərbaycan Milli Dram Teatrının səhnəsində böyük müvəffəqiyyətlə tamaşaya qoyulmuş, hal-hazırda da tamaşaçılar tərəfindən böyük hərarətlə qarşılanır və sevilir.

İlyas Əfəndiyevin bir sıra əsərləri dünyanın müxtəlif xalqlarının dillərinə tərcümə edilmiş, pyesləri Moskva, Daşkənd, Ankara, İstanbul, Mahaçqala və sair şəhərlərin teatr səhnələrində müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

İlyas Əfəndiyevin sağlığında Yəhya Seyidov, Yaqub İsmayılov, Aida Salahova, Yaşar Qarayev onun haqqında beş elmi monoqrafiya yazıb nəşr etdirmişlər.

İlyas Əfəndiyevin yaradıcılığı haqqında dissertasiyalar müdafiə olunmuşdur.

İlyas Əfəndiyev Lenin Ordeni, Oktyabr İnqilabı Ordeni, Qırmızı Əmək Bayrağı Ordeni, Şərəf Nişanı Ordeni ilə təltif edilmiş, Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı və sair fəxri adlara layiq görülmüşdür.

Ömrünün 60 ildən çoxunu yazıb-yaratmağa həsr edən görkəmli sənətkar 1992-ci ildə vəfat etmişdir.

İlyas Əfəndiyev Azərbaycan teatrına çox böyük töhfələr vermiş, xüsusi xidmətlər göstərmişdir. Azərbaycan teatrı üçün çox dəyərli əsərlər yaratmışdır. İnanırıq ki, onun bu dəyərli əsərləri Azərbaycan teatrının səhnəsində daimiyaşarlığını saxlayacaqdır. İlyas Əfəndiyevin həyatı, yaradıcılığı bütün oxucular üçün, bütün ədəbiyyatçılar üçün böyük bir məktəbdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "İlyas Əfəndiyevin 90 illiyi haqqında" 22 may 2004-cü il tarixli Sərəncamına və Mədəniyyət Nazirliyinin 11 avqust 2004-cü il tarixli əmrinə uyğun olaraq Kürdəmir Rayon Mədəniyyət Şöbəsinin müdiri Vaqif Alıyevin təşəbbüsü ilə rayonun bütün mədəniyyət ocaqlarında geniş tədbirlər keçiriləcəkdir.

Respublika Prezidentinin 229 saylı Sərəncamına və Mədəniyyət Nazirliyinin 275 saylı əmrinə uyğun olaraq Kürdəmir Rayon Mədəniyyət Şöbəsinin inspektoru İslam Bağırov İlyas Əfəndiyevin 90 illik yubileyi ilə əlaqədar tədbirlər planı işləyib hazırlamışdır. Yubileylə bağlı həmin tədbirlər planına görə Kürdəmir rayonunun bütün mədəni-maarif müəssisələrində İlyas Əfəndiyevin həyat və yaradıcılığına həsr edilmiş silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

Mərkəzləşdirilmiş kitabxana sistemində və onun 63 filialında, klub və mədəniyyət evlərində İlyas Əfəndiyevin əsərlərindən ibarət kitab sərgiləri təşkil edilmişdir.

Kürdəmir dövlət rəsm qalereyasında İlyas Əfəndiyevin əsərlərinə illüstrasiya janrında çəkilmiş rəsm sərgisi açılmışdır.

Həmin sərgilər bir neçə ay davam etdiriləcəkdir.

İ.Əfəndiyevin 90 illik yubiley tədbirlərinin ümumrayon səviyyəsində qeyd edilməsi nəzərdə tutulmuşdur. Bu münasibətlə yubilyarın xatirəsinə həsr olunmuş "Bir ömrün yazısı" adlı ədəbi-bədii gecə keçiriləcəkdir.

Yubiley tədbirləri bir neçə ay davam edəcəkdir.

**Fəridə BABAYEVA,**
**Məryam ƏLİYEVA**